


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (21.028)

5 iyul 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planına əsasən, iyulun 4-də "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfransın açılışı olmuşdur.

Əvvəlcə konfrans iştirakçıları Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Nuhun yurdu Naxçıvan" sənədli filminə baxmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfransın öz işinə başladığını bildirərək demişdir: "Konfransda Azərbaycanın görkəmli alim və tədqiqatçılarının, Türkiyə Respublikasından, Rusiya Federasiyasından və Amerika Birləşmiş Ştatlarından elmi-tədqiqat və ali təhsil nümayəndələrinin, mütəxəssislərin iştirakı əsas verir deyək ki, elmi forum səmərəli keçəcəkdir. 2014-cü il Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi Azərbaycanda və ondan kənarda geniş şəkildə qeyd edilir. Yubiley münasibətilə Bakıda və Naxçıvan şəhərində, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, Polşa Respublikasının Krakov şəhərində tədbirlər keçirilmiş, dünyanın aparıcı mətbuat orqanlarında Naxçıvana həsr olunmuş məqalələr dərc edilmiş, muxtar respublikanın inkişafının son 90 ilini əhatə edən elmi-tədqiqat materialları və kitablar çap olunmuşdur".

Ali Məclisin Sədri bu tədbirlərin davamı kimi "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda keçirilən Beynəlxalq Konfransa da mühüm əhəmiyyət verildiyini bildirmiş, konfransın öz işinə başlaması münasibətilə təbriklərini çatdırmış, konfrans iştirakçılarını və qonaqları salamlamışdır.

Qeyd olunmuşdur ki, Azərbaycanın Naxçıvan bölgəsi qədim tarixə malikdir. Tale bu torpaqdan öz səxavətini əsirgəməyib. Əlverişli təbii-coğrafi şəraitə malik olan Naxçıvanda ən qədim zamanlardan məskunlaşan əcdadlarımız burada tükənməz mədəniyyət nümunələri yaratmışlar. Naxçıvan antik, orta əsrlər və müasir dövr milli mədəniyyət nümunələri və tarixi abidələrlə, ilk insan düşərgələri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, xatirə memarlığının mükəmməl nümunələri olan türbələrlə zəngindir. Bu ərazidə həmçinin Ovçular təpəsi və Qazma mağarası kimi qədim yaşayış yerləri, Əshabi-Kəhf və Gəmiqaya kimi möhtəşəm mədəniyyət nümunələri və beş min il bundan əvvələ aid edilən Naxçıvan şəhər mədəniyyəti yaradılmışdır. Bu ərazidə təkcə zəngin mədəni dəyərlərin yox, eyni zamanda böyük dövlətçilik ənənələrinin də əsası qoyulmuş, onuncu əsrdə "Naxçıvan şahlığı", on ikinci əsrdə isə Atabəylər dövləti yaranmışdır. On səkkizinci əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına mühüm töhfələr vermişdir. İyirminci əsrin



əvvəllərində bir milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmlənməsində və tarixi ərazisinin qorunmasında taleyüklü xidmətlər göstərmişdir.

Ali Məclisin Sədri demişdir: "Naxçıvanın ən qiymətli sərvətlərindən biri də bu dövlətçilik ənənələrinin davamı olaraq formalaşan Naxçıvanın muxtariyyətidir. Naxçıvan Muxtar Respublikası milli mənsubiyyətə görə yox, 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmışdır. 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişə görə qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini həllivacib olan məsələlər sırasına çəkmişdir. Ümummilli liderimiz Heydər Əliyev bu dövrdə yaranmış siyasi vəziyyəti nəzərdə tutaraq demişdir ki: ***"Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etmişdir".*** Bu zərurət, ilk növbədə, Azərbaycana məxsus ərazinin qorunması vacibliyindən irəli gəlirdi. Zəngəzur Ermənistana veriləndən sonra Naxçıvan Azərbaycanın digər ərazilərindən təcrid olunmuş və burada gərgin vəziyyət yaranmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin düşdüyü vəziyyətdən istifadə edən böyük dövlətlər İrəvan və Zəngəzur kimi Naxçıvanı da ermənilərə güzəştə getmək, Türkiyə ilə Azərbaycan arasında əlaqəni kəsmək istəyirdilər. Erməni yaraqlıları ərazini azərbaycanlılardan təmizləmək üçün ən qəddar vasitələrə əl atır, soyqırımı törədir, torpaqların boşaldılmasına çalışırdılar. Buna baxmayaraq, nə böyük dövlətlərin təzyiqi, nə də erməni hərbi müdaxiləsi naxçıvanlıların iradəsini sındıra bilmədi. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında erməni istilaçılarına qarşı Naxçıvanda aparılan müqavimət hərəkatı barədə demişdir: "Naxçıvan öz qüvvəsi ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdir".

Bu fikirlərdə böyük həqiqət vardır. Naxçıvana muxtariyyət verilməsi tələbini irəli sürən Naxçıvan ziyalıları bununla bir tərəfdən Naxçıvanı erməni işğalından qorumaq istəyirdilərsə, digər tərəfdən Azərbaycanla, ana vətənlə bir olmaq istəyirdilər. Bunun üçün Azərbaycandan ayrı salınmış regionda vahid idarəçiliyin həyata keçirilməsi, pərakəndəliyin aradan qaldırılması məqsədilə muxtariyyət verilməsi ən düzgün qərar idi. Lakin qabaqcıl ictimai düşüncənin məhsulu olan bu qərar böyük dövlətlər tərəfindən ciddi müqavimətlə qarşılanırdı. Bəs necə oldu ki, Naxçıvana muxtariyyət verildi? Sovet "tarixşünaslığı" uzun müddət Naxçıvana muxtariyyət verilməsində mərkəzi hökumətin rolunu qabartmışdır. Üstündən sükutla keçilən bir faktor vardı ki, o da naxçıvanlıların muxtariyyət uğrunda inadlı mübarizəsidir. İndi arxiv materialları aydın şəkildə göstərir ki, Naxçıvana muxtariyyət verilməmişdir, əksinə, naxçıvanlılar bu muxtariyyəti qazanmışdılar. Naxçıvanın muxtariyyəti ermənilərə qarşı silahlı mübarizə cəbhəsində qazanıldığı kimi, böyük dövlətlərin siyasi oyunlarına qarşı diplomatik mübarizə cəbhəsində də qazanılmışdır. Behbud ağa Şahtaxtinski Sovet Rusiyası rəhbərliyi ilə iş aparır və bolşevik Rusiyasının rəhbəri Vladimir Leninə "Naxçıvanın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur", – deyirdisə, Tiflisdəki Amerika generalı Haskelə Naxçıvanın, Şərur-Dərələyəzin və Vedibasarın Azərbaycanın ayrılmaz hissəsi olduğunu əsaslandıran Əli Səbri Qasımov "Naxçıvanın və digər regionların əhalisi bu ərazilərin erməni hökumətinə verilməsinə necə baxar?" sualına "Əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti var qüvvələri ilə rədd edərlər" cavabını vermişdir".

Qeyd olunmuşdur ki, Naxçıvanın muxtariyyəti asanlıqla qazanılmayıb. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələri imzalanmış, bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikası təşkil olunmuşdur. Naxçıvanın muxtariyyət qazanmasında mühüm xidmətləri olan şəxslərdən biri də Nəriman Nərimanovdur. O, 1921-ci ilin mayında Beşinci Azərbaycan Sovetlər Qurultayındakı çıxışında Moskva müqaviləsinə hökumətin münasibətini bildirərək demişdir: "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən, Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olundu. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik".

Nəriman Nərimanov Azərbaycanda hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Naxçıvana erməni-bolşevik həmlələri intensiv xarakter almış, ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"Naxçıvanın hüquqlarını tam məhdudlaşdırmaq"*** xətti tutulmuş, Naxçıvanın tarixi torpaqları hesabına Ermənistan ərazisinin süni surətdə artırılması siyasəti yeridilmişdir. Bununla bağlı Naxçıvanın hakimiyyət orqanlarına müxtəlif təzyiqlər göstərilmiş, təkcə 1925-ci ilin martında "hakimiyyətdə olan xan-bəy elementlərinin fəaliyyətini araşdırmaq" pərdəsi altında bir gecədə 50 rəhbər işçi həbs edilmiş, onların əksəriyyəti repressiya olunmuşdur.

"Naxçıvanın ərazisi kimi, onun muxtariyyət statusu da zaman-zaman məkrli erməni həmlələrinə məruz qalmışdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, 1990-cı ilin iyul ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Bu illərdə xalqımızın böyük oğlunun muxtar respublika Ali Məclisində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir.

Ardı 2-ci səhifədə

Naxçıvanın muxtariyyətini möhkəmləndirən mühüm faktorlardan biri də, şübhəsiz ki, ötən 90 il ərzində burada gedən sosial-iqtisadi inkişafdır. Bu gün ümummilli lider Heydər Əliyev tərəfindən başlanan, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam və inkişaf etdirilən yeniləşmə və quruculuq xətti muxtar respublikada həyatın bütün sahələrini əhatə etmişdir. Qarşıda dayanan əsas vəzifə blokada vəziyyəti ilə bağlı yaranan çətinliyi aradan qaldırmaq, əhali məşğulluğunu təmin etmək, yeni infrastruktur, emal və sənaye sahələri yaratmaq, sosial sahələrin – təhsilin, mədəniyyətin, səhiyyənin və elmin daha da inkişaf etməsinə nail olmaqdır.

Ali Məclisin Sədri beynəlxalq konfransın qeyd olunan istiqamətlərdə fəaliyyətə öz töhfəsini verəcəyinə inamını ifadə etmiş, iştirakçılara uğurlar və elmi hesabatlarının faydalı olmasını arzulamış, "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" Beynəlxalq Konfransını açıq elan etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə çıxış edərək demişdir ki, ölkəmizdə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi geniş qeyd olunur. Bu böyük tarixi yubiley tədbirləri Azərbaycanda milli dövlətçilik təfəkkürünün, ərazi bütövlüyü düşüncəsinin daha da dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edir. Naxçıvan dünya sivilizasiyasının əsas mərkəzlərindən biridir. Bu torpağın yetirdiyi görkəmli şəxsiyyətlər Azərbaycan ədəbiyyatının, mədəniyyətin, elmin, siyasi-ictimai fikrin inkişafında tarixən mühüm xidmətlər göstərmişlər. Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının institutlarının, xüsusən Naxçıvan Bölməsinin alimlərinin apardıqları ardıcıl elmi axtarışlar Naxçıvanın tarixinin ən dərin qatlarının açılmasına zəmin yaratmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən elmin inkişafı istiqamətində mühüm nailiyyətlər qazanılmışdır. Muxtar respublikanın 90 illiyinə həsr olunmuş elmi konfrans da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.



Elmi konfransda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, akademik Arif Mehdiyev bildirmişdir ki, dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda ölkə və dünya alimlərinin iştirakı ilə "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfransın keçirilməsi Azərbaycanın elmi həyatında mühüm hadisədir. Qeyd olunmuşdur ki, son illər Naxçıvanda elmin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, elmi kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində dissertasiya şuraları fəaliyyət göstərir. Bu da yüksəkixtisaslı elmi kadrların hazırlanmasında mühüm əhəmiyyətə malikdir.

Konfransın plenar iclasında Rusiyadan gəlmiş tarix elmləri namizədi Oleq Kuznetsov "1921-ci il Moskva və Qars müqavilələrinə görə Naxçıvanın beynəlxalq hüquqi statusu", Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Nailə Vəlixanlı "Naxçıvana qarşı əsassız erməni iddiaları", Türk Tarix Qurumunun üzvü, professor İbrahim Atnur "İmperializm əsarətindən muxtariyyətə", Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan muxtariyyət statusu və muxtar respublikanın yaradılması" mövzularında məruzə etmişlər.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında Naxçıvan Muxtar Respublikasında elmin inkişaf etdirilməsi üzrə birgə əməkdaşlığa dair saziş imzalamışlar.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsindən bu il iyunun 30-da Azərbaycan Milli Elmlər Akademiyasına həqiqi və müxbir üzv seçilənlərə üzvlük diplomu və vəsiqələri təqdim olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, akademik Arif Mehdiyev Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim etmişlər.

Beynəlxalq konfransın plenar iclası ***"nakhchivan.az"*** internet saytında canlı yayımlanmışdır.

Həmin gün beynəlxalq elmi konfrans öz işini bölmə iclasları ilə davam etdirmişdir. Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində beynəlxalq konfransın yekun iclası olacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beynəlxalq konfransın bölmə iclaslarında Naxçıvanın muxtariyyət tarixi, sosial-iqtisadi inkişafı ilə bağlı elmi müzakirələr aparılmışdır

***Dünən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı Beynəlxalq Konfransın plenar iclası başa çatdıqdan sonra konfrans öz işini 5 bölmədə davam etdirmişdir.***

"Muxtariyyət ərəfəsində Naxçıvan diyarında ictimai-siyasi vəziyyət" adlanan və AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin sədrliyi ilə keçirilən bölmə iclasında AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin, həmin institutun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, institutun şöbə müdiri, dosent Emin Şıxəliyevin, Naxçıvan Özəl Universitetinin dosentləri Elbrus İsayevin, İbrahim Kazımbəylinin, AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin və başqalarının "Muxtariyyət ərəfəsində tarixi Naxçıvan ərazisində etnik, sosial-siyasi mənzərə", "Muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət", "Muxtariyyət ərəfəsində İngiltərə və Rusiyanın geosiyasi maraqlarında Naxçıvan", "İngiltərənin Qafqaz siyasətində Naxçıvan", "Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi prosesi, tarixi yanlışlıq: Naxçıvan məsələsi siyasi-diplomatik hədəflərdə", "Naxçıvan Muxtar Respublikasının qurucularından biri – Nəcəfqulu Nəcəfov" və digər mövzularda elmi məruzələri dinlənilmişdir.



AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin sədrlik etdiyi "Naxçıvanın muxtariyyət statusu, Naxçıvan MSSR-in yaradılması və inkişafı" adlı bölmədə akademik İsa Həbibbəylinin, AMEA-nın müxbir üzvü Teymur Kərimlinin, AMEA Tarix İnstitutunun əməkdaşı, professor Cəbi Bəhramovun, Naxçıvan Dövlət Universitetinin dosenti Elman Cəfərlinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşı Gülşən Kəngərlinin, "İrs" jurnalının redaktoru Musa Mərcanlının və başqalarının "Humanitar siyasətin Naxçıvan modeli", "Füzuli ədəbi məktəbinin davamçısı Heyran xanım", "Naxçıvan Muxtar Respublikası 1941-1945-ci illər müharibəsi dövründə", "Naxçıvan tarixinin erməni mətbuatında saxtalaşdırılması", "Post-sovet məkanının unitar dövlətlərində muxtariyyətlər və Naxçıvanın muxtariyyəti", "Günəş Şərqdən doğur" mövzularında elmi məruzələri dinlənilmişdir.

"Naxçıvan Muxtar Respublikası inkişaf yollarında", "Naxçıvanın istehsal potensialının formalaşması və inkişaf tendensiyası", "Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı" və digər mövzuların dinlənildiyi üçüncü bölmədə Naxçıvan Dövlət Universitetinin professoru Asif Şirəliyevlə birlikdə iqtisad üzrə fəlsəfə doktoru Cavadxan Qasımov, iqtisad üzrə fəlsəfə doktoru Müslüm Cabbarzadə, Naxçıvan Müəllimlər İnstitutunun professoru Nazim Əhmədov və başqaları məruzə ilə çıxışlar etmişlər.

"Naxçıvanın muxtariyyət dövründə elm və təhsilin inkişafı". Bu bölmədə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin sədrliyi ilə ABŞ-dan olan Lauren Ristvet və Emilya Hammerin "Oğlanqala və Qızqala ətrafında araşdırmalar (2013-2014)", AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında arxeoloji tədqiqatlar", ABŞ vətəndaşları Hillari Qopnikin "Oğlanqalanın Dəmir dövrü keramikasının xüsusiyyətləri", Susanna Fişmanın "Oğlanqala keramikasının pektoqrafik xüsusiyyətləri" mövzularında məruzələri maraqla qarşılanmışdır.

"Əlaqələr və mədəniyyət" adlanan sonuncu bölməyə AMEA-nın müxbir üzvü Qadir Qədirzadə sədrlik etmişdir. Bu bölmədə Türkiyə Respublikasından gəlmiş professorlar Xeyrəddin İvginin, Nail Tanın, Yaşar Kalafatın, Naxçıvan Dövlət Universitetinin dosenti Vaqif Məmmədovun və başqa alimlərin elmi məruzələrlə çıxışları olmuşdur.

Məlumat üçün bildirək ki, beynəlxalq konfransın bölmə iclasları bu gün nahara qədər davam etdiriləcək.

AMEA Naxçıvan Bölməsində keçiriləcək konfransın yekun iclasında bölmə rəhbərlərinin hesabatları dinləniləcək.

**✍ Muxtar MƏMMƏDOV**

## Sahibkarlarla görüş keçirilmişdir

***İyulun 4-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüş keçirilmişdir. Fəaliyyət göstərən istehsalçı, topdan və pərakəndə satış sahibkarlarının birgə görüşündə muxtar respublikada yaradılmış istehsal müəssisələrinin tam gücü ilə fəaliyyət göstərə bilməməsi səbəbləri, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə qarşıda duran vəzifələr müzakirə edilmişdir.***

Tədbiri Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov açaraq region iqtisadiyyatında özəl bölmənin inkişafına göstərilən dövlət qayğısından danışmış, müasir dövrdə qarşıya qoyulmuş vəzifələrin aktuallığından bəhs etmişdir. Qeyd edilmişdir ki, muxtar respublika iqtisadiyyatının dinamik inkişaf etdirildiyi bir dövrdə hər bir sahibkarın qarşısında bu dinamikanın qorunub saxlanılması, regionda yeni iş yerlərinin yaradılması və yerli istehsal məhsullarının satışına üstünlük verilməsi, ixracyönümlü fəaliyyətə keçilməsi vəzifəsi qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında istehsal olunan yerli məhsullara analoq olan idxal məhsullarının satışına daha çox üstünlük verən bir sıra ticarət xidməti sahibkarlarının bu məsələdə məsuliyyətli olmaları diqqətə çatdırılmışdır. Vurğulanmışdır ki, artıq hər bir sahibkar öz işini günün tələbləri səviyyəsində qurmağı bacarmalı, aldığı kreditlərin düzgün istifadəsinə çalışmalı, ticarət obyektlərində yerli məhsulların satışına diqqət artırılmalıdır.



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov muxtar respublikada daxili bazarın qorunması istiqamətində gömrük orqanları qarşısında qoyulmuş vəzifələrdən bəhs edərək qeyd etmişdir ki, bu gün regionun iqtisadi təhlükəsizliyinin təmin edilməsi dövlətimizin əsas qayğılarından biridir. Vurğulanmışdır ki, bazar iqtisadiyyatı şəraitində bu məsələnin həlli iqtisadi mexanizmlər və tənzimləmə tədbirləri əsasında aparılır. Bununla yanaşı, bu məsələdə hər kəs öz sosial məsuliyyətini əvvəlcədən duymalı və bu işdə vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir. Belə ki, lazım oldu-olmadı bazara idxal məhsulların alınıb gətirilməsi yerli istehsalçıların bazar payının azalmasına səbəb olur ki, bu da onların işinin zəifləməsinə gətirib çıxarır. Bu məsələdə gömrük orqanları ilə digər dövlət orqanlarının müştərək fəaliyyət göstərməsi muxtar respublikadakı bütün sahibkarların mənafelərinin qorunmasına xidmət edir.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı Zaur Bağırovun yerli istehsalın qorunmasında gömrük orqanlarının gördüyü işlər, İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşları Anar Cəfərovun istehsal müəssisələrinin fəaliyyətində mövcud çətinliklərlə bağlı aparılmış təhlillərin nəticələri, Namiq Əhmədovun yerli istehsalın satışının stimullaşdırılması istiqamətində mövcud vəziyyət və Emin Zeynalovun "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis olunması və müəssisələrdə marketinq işinin təşkili mövzularında çıxışları olmuş, qarşılıqlı müzakirələr aparılmış, sahibkarların fikirləri dinlənilmişdir.

Tədbirə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov yekun vurmuşdur.

**✍ Əli CABBAROV**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib



*Dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində cari ilin birinci yarımilində görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir.*

Yığıncağı fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2014-cü ilin birinci yarısında Fövqəladə Hallar Nazirliyi muxtar respublikada mülki müdafiə işinin təşkili, əhalinin və ərazinin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, tikintidə, sənayedə, eləcə də dağmədən işlərində təhlükəsizliyin təmin edilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışmış, struktur qurumların fəaliyyətinin gücləndirilməsi, peşəkar kadrların hazırlanması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, texniki təchizat və təminat məsələlərinin həll edilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilmişdir.

Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni inzibati binanın, texniki parkın tikintisinin başa çatdığını bildirən nazir qeyd etmişdir ki, şöbənin yanğın avtomobilləri əsaslı surətdə təmir edilmiş, əməliyyat-minik və yanğınsöndürmə avtomobillərində radiostansiyalar quraşdırılmışdır.

Fövqəladə hallar naziri demişdir ki, birinci yarımildə Ekologiya və Təbii Sərvətlər Nazirliyində elmi-praktik konfrans, Culfa dəmiryol qovşağında və Şərur Rayon Mərkəzi Xəstəxanasında kompleks mülki müdafiə təlimləri, 3 uşaq bağçasında tədbirlər keçirilmiş, 15 nazirlikdə, 12 sahibkarlıq subyektində, 40 təhsil və 12 səhiyyə müəssisəsində, 10 uşaq bağçasında, 5 elektrik stansiyasında yoxlamalar aparılmış, mülki müdafiə tədbirlərinin keçirilməsinə dair həmin müəssisə və təşkilatlara metodik köməkliklər göstərilmişdir.

Vurğulanmışdır ki, hesabat dövründə Naxçıvan, Şərur, Ordubad, Culfa, Şahbuz şəhərlərində və Babək qəsəbəsindəki yaşayış binalarının zirzəmiləri yoxlanılmış, muxtar respublikanın irihəcmli su anbarlarında monitorinqlər keçirilmişdir.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən 54 obyektdə mühəndis-geoloji axtarış işləri aparılmış, 53 obyektin layihə-smeta sənədləri ekspertizadan keçirilmişdir.

Sonra məruzə ətrafında nazirliyin Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin rəisi, polkovnik-leytenant Baba Babayevin, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımovun, "N" hərbi hissənin komandiri, polkovnik İspəndiyar Əhmədovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun çıxışları olmuşdur.

Kollegiya iclasına fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev yekun vurmuşdur.

* * *



*Naxçıvan Tibb Kollecində də 2014-cü ilin ilk 6 ayının yekunlarına və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə həsr olunmuş yığıncaq keçirilmişdir.*

Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq ötən dövr ərzində kollecdə tədrisin səviyyəsinin yüksəldilməsi, ixtisaslı tibbi kadrların hazırlanması istiqamətində görülən işlərdən danışmışdır.

Qeyd olunmuşdur ki, 2013-2014-cü tədris ilinin II yarısında tələbələrin ümumi sayı 438 nəfər olmuş, onlardan 149 nəfəri dövlət hesabına, 289 nəfəri isə ödənişli əsaslarla təhsil almışdır.

Kollecin iş planına əsasən, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişləri əsasında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tibb müəssisələrində çalışan (tibbi qeydiyyatçılar 17 nəfər və tibbi laborantlar 21 nəfər) orta tibb işçiləri üçün təkmilləşdirmə kursları təşkil olunmuşdur.

Dərslərin keyfiyyətini yüksəltmək, savadlı kadrlar yetişdirmək məqsədilə dərslər əyani vəsaitlərlə tam təchiz edilmiş laboratoriyalarda, kabinələrdə, elektron lövhəli siniflərdə və kompüter otağında keçilir. Kollecdə 8 kabinə, 2 laboratoriya, 6 elektron lövhəli sinif, 1 kompüter sinfi fəaliyyət göstərir. 2013-2014-cü tədris ilində əlavə olaraq, 1 kompüter sinfi yaradılmış, 11 ədəd kompüter internetə qoşularaq tələbələrin istifadəsinə verilmişdir.

Bildirilmişdir ki, bu il müxtəlif mövzularda keçirilmiş treninqlərdə iştirak etmək üçün kollecin bir qrup müəllimi Bakı şəhərinə göndərilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

*İyulun 4-də Naxçıvan Şəhər İcra Hakimiyyətində 2014-cü ilin birinci yarısının yekunlarına və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrin icrasına həsr olunmuş yığıncaq keçirilmişdir. Yığıncaqda Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavinləri Sərdar Salahov və Səyahət İmanov məruzə ilə çıxışlar etmişlər.*



Qeyd olunmuşdur ki, 2014-cü ilin birinci yarımilində də Naxçıvan şəhərində abadlıq-bərpa, tikinti-quraşdırma işləri sürətlə davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin, Hərbi Prokurorluğun və Beynəlxalq Hava Limanının inzibati binaları, 3 yaşayış binası, Gənclər Mərkəzi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, 11 nömrəli tam orta məktəb və 5 nömrəli uşaq bağçası binaları, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, "Park" Alış-Veriş Mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda müxtəliftəyinatlı tikinti-quruculuq tədbirləri Naxçıvan şəhərində və Naxçıvan şəhərinin tabeliyində olan kənd yaşayış məntəqələrində davam etdirilir.

Vurğulanmışdır ki, əhalinin yerli istehsal məhsulları ilə təminatı diqqət mərkəzində saxlanılmış, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmişdir. 2014-cü ilin məhsulu üçün 174,1 hektar sahədə taxıl əkinləri aparılmışdır.

Heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılmış, ilin ilk 6 ayı ərzində 398 ton ət, 714 ton süd, 19,4 ton yun, 1 milyon 545 min ədəd yumurta istehsal edilmişdir.

Bəhs olunan dövrdə əhalinin sosial müdafiəsinə diqqət artırılmış, Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsinin 2014-cü ilin birinci yarısında gəlirləri 17 milyon 704 min 92 manat, xərcləri isə 12 milyon 696 min 872 manat olmuşdur.

Bildirilmişdir ki, Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 2280 nəfərə sosial müavinət, 340 ailənin 1433 üzvünə ünvanlı sosial yardım təyin olunmuş, onlara 241 min 762 manat vəsait ödənilmişdir. 6 ay ərzində 288 nəfər yeni iş yerlərinə göndərilmişdir.

Ekoloji təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan yaşıllaşdırma tədbirlərindən də bəhs edən məruzəçilər diqqətə çatdırmışlar ki, Naxçıvan şəhərində və ona tabe olan kənd yaşayış məntəqələrində 6 min 820 ədəd müxtəlif meyvə, 480 ədəd meşə ağacları, 3700 ədəd həmişəyaşıl ağac, 8100 ədəd həmişəbahar və müxtəlif gül kolları, 520 ədəd dekorativ ağac əkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na əsasən, yaz iməcilikləri dövründə 6 hektar sahədə meyvə bağı salınmış, 8 hektar sahədə meşə-bərpa işləri aparılmışdır.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək qarşıda duran vəzifələrdən danışmışdır.

# Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2014-cü ilin ilk 6 ayı ərzində nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması, nəzarət-kassa aparatlarından istifadə edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işə götürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 58 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb. Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 11 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 16 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb. Operativ vergi nəzarəti tədbirləri zamanı 9 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan sərnişin daşıması, 14 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olması, 3 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib. Əlavə olaraq, keçirilən nəzarət tədbirləri zamanı 5 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanıb və həmin şəxslər barəsində müvafiq tədbirlər görülüb. Həmin şəxslərdən 4-nün fəaliyyəti şəxsi nəqliyyat vasitələrindən istifadə etməklə sərnişindaşıma xidmətindən, 1 şəxsin fəaliyyəti isə səyyar qaydada qanunsuz olaraq ticarət fəaliyyəti göstərməkdən ibarət olub. Aparılan operativ nəzarət işləri zamanı tətbiq edilmiş 5622,7 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilib.

Qeyd olunan dövr ərzində 42 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması işi aparılıb. Həmçinin bəhs olunan dövrdə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 13 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələr ilə müqayisədə 23676,2 manat dövriyyə artımına nail olunub. Bu da hər bir vergi ödəyicisinə məxsus hər bir obyekt üzrə orta hesabla 36,4 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Operativ vergi nəzarəti tədbirləri bundan sonra da davam etdiriləcək.

**Xəbərlər şöbəsi**

# Naxçıvan "Araz" Parket Fabrikində keyfiyyətli məhsul istehsal olunur

*Muxtar respublikamızda sahibkarlara güzəştli kreditlərin verilməsi, müasir texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli, xüsusilə ixracyönümlü məhsulların istehsalı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.*

Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan "Araz" Parket Fabriki də son illər həyata vəsiqə alan istehsal müəssisələrindəndir. Müəssisə inşaat obyektlərinin taxta və parket məmulatlarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılmışdır. Bu istehsal müəssisəsi də özəl bölməyə göstərilən dövlət qayğısından bəhrələnmişdir. Parket fabrikinin inşa olunması, müasir texnoloji avadanlıqların alınması üçün 2010-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 250 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Naxçıvan şəhərində 3500 kvadratmetr torpaq sahəsi ayrılmış, müasir layihə əsasında yeni bina inşa olunmuşdur. Fabrikdə ayrı-ayrı iş otaqları, 5 istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana və digər yardımçı otaqlar tikilib istifadəyə verilmişdir. Müəssisədə Almaniya istehsalı olan doğrayıcı, yan şovlaracıçı, hamarlayıcı, kəsici avadanlıqlar quraşdırılmış, yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün hər cür şərait yaradılmışdır.



Naxçıvan "Araz" Parket Fabrikində qurulmuş avadanlıqların gündəlik istehsal gücü 900 kvadratmetrdir. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən uyğunluq sertifikatı ilə təmin olunmuş müəssisədə hazırda tələbata uyğun müxtəlif çeşidlərdə məhsullar istehsal edilir.

2010-cu ilin iyul ayından fəaliyyətə başlayan müəssisədə parket istehsalı sahəsində 17 nəfər təcrübəli mütəxəssis çalışır. Fabrikdə işçilərin sağlamlığının mühafizəsi də diqqət mərkəzində saxlanılır. Burada xüsusi havatəmizləyici qurğu quraşdırılmışdır. Müəssisənin maliyyə imkanları genişləndikcə taxtadan hazırlanan digər məhsulların da istehsal olunması və əlavə işçi qüvvəsinin cəlb edilməsi planlaşdırılır.

Fabrikdə quraşdırılmış müasir avadanlıqlar xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə ciddi əməl olunmasına imkan verir. Parket istehsalı üçün lazım olan material xammal şəklində Türkiyə və Ukrayna respublikalarından alınıb gətirilir. İstehsal müəssisəsinə xammal şəklində daxil olan palıd, fıstıq və cökə ağacları ilkin olaraq emal sexində 5-8 santimetr qalınlığında kəsilib müəyyən ölçülərə salındıqdan sonra hər birinin tutumu 90 kubmetr olan 2 qurutma sexinə yığılır. Ağacın növünə uyğun olaraq, onun neçə dərəcə istilikdə və hansı müddətdə qurudulması, rütubəti və soyudulması kompüterdə proqramlaşdırılmışdır. Qurudulmuş parket, taxta lambirin və döşəmə taxtası yarımfabrikant halında son istehsal bölümünə daxil olur. Kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlarda taxtaların yan tərəfində şovlar açılıb hamarlanaraq növbəti mərhələdə paketlənib anbara təhvil verilir. Yaxın vaxtlarda ağackəsən avadanlığın alınması və yerli xammaldan səmərəli istifadə etməklə parket və taxta məmulatlarının istehsalı nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsullar Naxçıvan Muxtar Respublikasında, ölkəmizin paytaxtı Bakı şəhərində və ayrı-ayrı regionlarda satışa çıxarılır. Yüksək keyfiyyət göstəriciləri ilə seçilən məhsullar qiymət baxımından da istehlakçıların mənafeyinə uyğundur. Belə ki, Naxçıvan "Araz" Parketin Fabrikinin istehsalı olan parketin 1 kvadratmetri orta hesabla 25 manata satılır.

*Müəssisədə istehsal olunan məhsulların xarici bazarlarda satışa çıxarılması və tanıdılması istiqamətində işlər aparılır.*

**Kərəm HƏSƏNOV**

*Dünyada maddi və qeyri-maddi hesab etdiyimiz çox sayda sərvətlər var. Uca Tanrının iradəsi ilə insanlara verilmiş bu sərvətlər yalnız insan həyatda var olduqca faydalı olur, həyatdan köçdükdən sonra onların heç bir dəyər və əhəmiyyəti qalmır. İnsanoğlu daim bu sərvətləri əldə etmək və artırmaq üçün mübarizə aparır. İbtidai təhsil almaq, müxtəlif ixtisaslara yiyələnmək, bunun müqabilində mütəmadi olaraq çalışmaq, böyüklərin həyat təcrübəsindən yararlanmaq bizi maddi və mənəvi sərvətlərə daha da yaxınlaşdırır, bu sərvəti artırmağa sövq edir.*

## Zaman ən böyük sərvətdir

Maraqlı burasıdır ki, dünyadakı bütün sərvətlərin içərisində yalnız ikisini artırmaq mümkün deyil. Bunlar zaman və sağlamlıqdır. İşin digər maraqlı tərəfi isə odur ki, insanlar bütün sərvətləri əldə etmək üçün ömürləri boyu mübarizə aparırlar, bu iki sərvət isə doğulduğumuz andan bizimlədir. Bəlkə də, buna görədir ki, bu sərvətlərin qiymətini bilmədiyimizdən onlar bizə verildiyi andan azalmağa başlayır. Bu yazıda da insan üçün ən böyük sərvət olan zamandan bəhs edəcəyik.

Əvvəlcə onu qeyd etmək istərdik ki, hər bir sərvətin qiyməti olduğu kimi, zamanın da öz qiyməti var. Ancaq eyni zamanda zamanı qiymətləndirmək də mümkün deyil, onu yalnız dəyərləndirmək olar. Zaman Uca Tanrı tərəfindən insanlara verilmiş bir sərvətdir ki, bu sərvətdən yalnız onu dəyərləndirənlər qazanclı çıxa bilərlər. Müqəddəs "Qurani-Kərim"də zamanla bağlı deyilir: *"Zamanı O yaratmışdır. Əgər yaratmasaydı, Onun mövcudiyyəti zamanın daxilində olardı..."* Yəni demək istədiyimiz odur ki, zaman hər bir insan üçün çox dəyərli məfhumdur. Məsələnin digər maraqlı tərəfi isə ondan ibarətdir ki, əksər insan bu və ya digər şəraitdə zamanın azlığından şikayətlənir. Məsələn, belə fikirləri cəmiyyətdə tez-tez eşitməli oluruq: "Filan işi görməliyəm, ancaq zamanım yoxdur", "Xəstə qohumumu ziyarət etməliyəm, ancaq vaxt tapa bilmirəm", "İstirahət etməliyəm, amma işlərimin çoxluğundan buna zaman ayıra bilmirəm" və sair. Bu sahədə "bəxti gətirənlər" vaxtlarını düzgün bölənlərdir. İstənilən işin və ya fəaliyyətin əsasında vaxtın düzgün bölünməsi amili dayanır. Bunun üçün hər hansı bir kəşfə ehtiyac yoxdur. Sadəcə, birgünlük rejimimizə diqqət yetirsək, hər şey bizə aydın olar. Birgünlük fəaliyyətimizə nəzər salsaq, görərik ki, gün ərzində "vaxtımızı yeyən" bir çox amillər var. Məsələn, indi telefonla uzun-uzadı danışmaq hər birimizin hobbisidir. Sosioloqların araşdırmalarına görə, müasir dövrdə insanların 30 faizi yeri gəldi-gəlmədi, gün ərzində yarım saatdan çox telefonla danışır. Beş yüz mindən çox əhalisi olan şəhərlərdə bir insanın ən azı 2 saatı yollarda keçir. İnformasiya texnologiyalarının, xüsusilə internetin inkişafı elə bir səviyyəyə çatıb ki, fəaliyyəti bu sistemə bağlı olan işçilərin belə, gün ərzində 1-3 saatı virtual aləmdə "dolaşmaqla" keçir. Belə misalların sayını artırmaq da olar. Günün sonunda isə orta hesabla 3-4 saatlıq bir zamanın boşa sərf edildiyinin fərqində olmuruq. Vaxtın düzgün idarə olunması müasir dövrdə elə bir aktual problemə çevrilib ki, dünya alimlərinin bu sahədə tətbiq etdiyi "qızıl qaydalar" belə, insanların fəaliyyət imkanlarına az təsir edir. "Ən məhsuldar işçi çox işləyəndir" fikri dünyanın bir çox məşhur şirkətlərində artıq çoxdan öz aktuallığını itirib. Çünki işin keyfiyyəti insanların işləyə bilmə potensialı ilə düz mütənasibdir. Daim vaxtını, enerjisini işə ayıraraq səhhətinə diqqət etməyən və müəyyən yaşdan sonra sağlamlığında problemlər meydana gələn insan həyatda nə qədər müvəffəqiyyətli ola bilər? Və ya bu cür problemləri "əldə etmiş" bir insan cəmiyyətin özünə problem sayılmırmı? Yəni söhbət ikinci sərvətdən – sağlamlıqdan gedir. Buna görə vaxtın idarə edilməsində, hələlik, tapılan qızıl qayda belədir: 8+8+8 (iş+ailə+yuxu). Gündəlik fəaliyyətin bu bölgüdə qurulması inkişaf etmiş hər bir ölkənin vətəndaşları üçün, hələlik, öz əhəmiyyətini itirməyən yeganə düsturdur.

Sonda isə bir maraqlı faktı oxucularımızla bölüşmək istərdik. İndi kimdən soruşsaq, hər kəs internetin insanlar üçün böyük vaxt itkisi olduğunu deyəcəkdir. Elə mənim də internetdən əldə etdiyim maraqlı bir məlumat bu düşüncələrimin üzərindən qalın da olmasa, incə bir xətt çəkdi: "İnternet insan ömrünü uzadır!" Bilirsiniz necə? Gündəlik fəaliyyətimizdə zamanımızı alan bir çox işlər var. Məsələn, təyyarəyə bilet almaq, müxtəlif ödəmələr üçün müəyyən ünvanlara gedib saatlarla növbədə durmaq, hər hansı bir dövlət qurumuna müraciət edib cavab gözləmək, alış-veriş üçün hansısa bir ünvana getmək və sair. Məncə, itirilən vaxtı hesablamaqdansa, ömrümüzü belə "uzatmaq" daha sərfəlidir. Çalışaq, bizə ayrılmış zamanı elə zamanında dəyərləndirə bilək!

✍ **Səbuhi HƏSƏNOV**

## "Naxtel"in SMS xidməti yaradılıb

***Muxtar respublika sakinlərinə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək, müasir texnologiyalara əsaslanan xidmət növlərini tətbiq etmək istiqamətində həyata keçirilən tədbirlər son illər bu sahədə öz bəhrələrini verib.***

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən aldığımız məlumata görə, muxtar respublikada bu istiqamətdə daha bir addım atılıb. Belə ki, muxtar respublikada şəbəkədaxili və şəbəkədənkənar SMS qəbulunu və göndərilməsini həyata keçirən "Naxtel" mobil operatorunun SMS xidməti yaradılıb. Məlumatda o da bildirilir ki, "Naxtel"in toplu SMS xidməti mərkəzi də fəaliyyətə başlayıb.

"Naxtel" simsiz rabitə şəbəkəsinin əhatəsinin genişləndirilməsi məqsədilə 5 yeni baza stansiyası qurulub, simsiz internetin sürətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə Naxçıvan şəhərində "Naxtel" şəbəkəsi üzərindən EV-DO texnologiyası əsasında hər bir abunəçiyə 3.1 mb/s sürətində internet xidməti təşkil edilib.

Qeyd edək ki, 2007-ci ilin mart ayından etibarən muxtar respublika ərazisində fəaliyyətə başlayan "Naxtel" CDMA simsiz rabitə texnologiyasına əsaslanan simsiz mobil operatordur. "Naxtel" operatoru hazırda 27 baza stansiyası ilə muxtar respublikanın yaşayış ərazilərinin 85 faizini əhatə edir, həmçinin əhatə dairəsində simsiz internet xidməti göstərir. "Naxtel" şəbəkəsi çoxfunksiyalıdır, mobil telefonlarla yanaşı, stasionar telefon xidmətlərini də həyata keçirir.

Müxtəlif funksiyaları yerinə yetirən toplu SMS-in üstünlükləri də çoxdur.

Xüsusilə xərc, təsir, hesabatlama üstünlükləri müştəriləri qane edəcək səviyyədədir. Kooperativlər, istehsal, nəqliyyat, turizm, sığorta, sağlamlıq, avtomobil, pərakəndə, maliyyə, ayləncə, təhsil və paylama sektorları başda olmaqla toplu SMS-dən bir çox sahədə istifadə edilə bilər.

**Xəbərlər şöbəsi**

## Ağac üzərində oyma sənəti üzrə kurs təşkil edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Regional Peşə Tədris Mərkəzində ağac üzərində oyma sənəti üzrə kurs təşkil edilib.

Kursa 9 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 6 şəxs cəlb edilib. Kurs iki ay davam edəcək.

Kursun təşkilində məqsəd qədim xalq sənətini yaşatmaq və sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarını təmin etməkdir.

Məlumat üçün qeyd edək ki, kursu müvəffəqiyyətlə bitirən müdavimlərin sosialyönümlü haqqıödənilən ictimai işlərə cəlb edilməsi də nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda beynəlxalq idman yarışı keçirilir

***Bu gün Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarış keçiriləcək.***

23 ölkənin 200-dən artıq idmançısının mübarizə aparacağı yarış iyulun 8-nə kimi davam edəcək. Artıq dünya kubokunda iştirak edəcək idmançılar muxtar respublikaya gəliblər. Dünən iştirakçılar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə bir çox tarixi abidəni ziyarət ediblər.

İlk olaraq "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan veteran idmançılar ardınca Nuh Peyğəmbərin məzarüstü türbəsi, Əcəmi Seyrəngahı, Açıq Səma Altında Muzey, Möminə xatın türbəsi və Duzdağ Fizioterapiya Mərkəzində də olublar.

Qeyd edək ki, bu gün dünya kuboku yarışının açılış mərasimi keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İcbari sığorta müqaviləsinin bağlanmaması məsuliyyətə səbəb ola bilərmi?***

**Cavab:** Bəli, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində icbari sığorta müqaviləsinin bağlanmaması inzibati məsuliyyətə səbəb olur. İnzibati Xətalar Məcəlləsinin 253-1-ci maddəsinə əsasən, icbari sığorta qanunvericiliyində müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslər on manat miqdarında, vəzifəli şəxslər altmış manatdan səksən manatadək miqdarda, hüquqi şəxslər yüz əlli manatdan iki yüz manatadək miqdarda cərimə edilirlər.

***Sual:*** ***Tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı aparıla bilərmi?***

**Cavab:** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən, tikintisi başa çatdırılmamış daşınmaz əmlak üzərində, həmçinin mülki qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda mülkiyyət və digər əşya hüquqları dövlət reyestrində tikintiyə icazə sənədləri və plan-cizgi əsasında qabaqcadan qeydiyyata alına bilər. Tikintisi başa çatdırılmamış binanın tərkib hissəsi olacaq ayrı-ayrı mənzillərə və ya qeyri-yaşayış sahələrinə mülkiyyət hüququ və eyni zamanda onun ipoteka ilə yüklülüyü dövlət reyestrində qabaqcadan qeydiyyata alına bilər.

Hüququn əldə edilməsinə yönəldilmiş tələbin üstünlüyü qabaqcadan qeydiyyat üçün tələbolunan barəsində ərizənin reyestrə təqdim edilməsi vaxtı ilə müəyyən edilir.

***Sual:*** ***İşçilərin sayı və ya ştatları ixtisar edildiyinə görə əmək müqaviləsinə xitam verilərkən işçilərə əməkhaqqı ödənilirmi?***

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 77-ci maddəsinə əsasən, işçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda Əmək Məcəlləsinin 70-ci maddəsinin "b" bəndi ilə, yəni işçilərin sayı və ya ştatları ixtisar edildikdə, işəgötürən əmək müqaviləsini ləğv etməzdən azı iki ay əvvəl işçini rəsmi xəbərdar etməlidir. Xəbərdarlıq müddəti ərzində hər iş həftəsində əməkhaqqı saxlanılmaqla iş axtarmağa imkan yaradılması məqsədilə işçi azı bir iş günü əmək funksiyasının icrasından azad edilir. Əmək müqaviləsi işçilərin sayı və ya ştatları ixtisar edildiyinə görə ləğv edilərkən işçilərə orta əməkhaqqından az olmamaqla işdənçıxarma müavinəti, işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün orta əməkhaqqı ödənilir. Nəzərdə tutulan orta əməkhaqqı isə müvafiq məşğulluq orqanı tərəfindən işçiyə verilən arayışlar əsasında ödənilir. Həmin arayış isə işdən çıxan gündən bir ay müddətində məşğulluq orqanında qeydiyyata alınan şəxslərə verilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 1 avqust 2014-cü ildə hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra № | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Ümumi sahəsi 1109,03 kv.m. 120,05 kv.m. yaşayış sahəsi olan fərdi yaşayış evi | Şahbuz şəhəri, N.Nərimanov küçəsi 4 | 10904,00 | 10904,00 | 545,20 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 %-i məbləğində beh Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin AZ 88 NABZ 01451700000000012944, "Naxçıvan-Kredit" BOKT MMC-nin AZ 11 NABZ 12350600000000001944 nömrəli hesablarına 28 iyul 2014-cü il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 28 iyul 2014-cü il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- "Naxçıvan-Kredit" BOKT MMC-nin hesabına ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 1 avqust 2014-cü il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

### İtmişdir

Allahyarov Tahir Məmməd oğluna məxsus Heydər Əliyev prospekti 29-da yerləşən mağaza binasının 27.06.2000-ci il tarixdə verilmiş 22 qeydiyyat nömrəli mülkiyyət hüququ haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

İbrahimova Xanım Vaqif qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Danyeri kənd sakini Haqverdiyev Hüseyn Məhəmməd oğlunun adına olan JN 739A inventar nömrəli, 10200078 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsinin Mərkəzi Aparatının əməkdaşları iş yoldaşları Türkanə İsmayılovaya, anası
**SƏMAYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının aparat rəhbəri Azər Cəfərov və aparatın kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Bank of Azerbaijan" 12 saylı Naxçıvan filialının kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun və Batabat Astrofizika Rəsədxanasının kollektivləri iş yoldaşları Türkanə İsmayılovaya, anası
**SƏMAYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Ramin İsmayılov və birliyin kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cahan İnşaat Departamentinin rəhbəri Vilayət Cəlilov və departamentin kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cahan Ticarət Departamentinin rəhbəri Qaçay Şirinov və departamentin kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cahan Sənaye Kompleksi Departamentinin rəhbəri Ceyhun Abdullayev və departamentin kollektivi Vüqar Abbasova, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhərindəki 6 nömrəli uşaq bağçasının kollektivi bağçanın müdiri İlhamə Bayramovaya, atası
**MƏMMƏDƏLİ RZAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 582**